**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

**ƏMR**
**№ 3/409**

**Bakı şəhəri** **“ 12 ” 12 2016 il**

**2016/2017-ci tədris ilinin payız semestrinin imtahan sessiyasında “İmtahan qərargahı”nın yaradılması haqqında**

2016/2017-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının obyektiv, şəffaf və mütəşəkkil kecirilməsi ücün imtahanların gedişində yarana biləcək neqativ halların qarşısının alınmasını, yolverilən nöqsanların vaxtında aradan qaldırılmasını, imtahanların gedişi ilə bağlı daxil olan ərizə, şikayət və təkliflərin operativ araşdırılmasını, vətəndaşların müraciətlərinə vaxtında baxılmasını təmin etmək məqsədilə

**əmr edirəm:**

**1.** 2016/2017 –ci tədris ilinin payız semestrinin imtahan sessiyasında aşağıdakı tərkibdə “İmtahan qərargahı” yaradılsın:

1) Hüseynova Nailə Tofiq qızı - “Korreksiyaedici təlim” kafedrasının müdiri, dosent, Rəhbər;
2) Əliyev Vaqif Kamil oğlu - Həmkarlar Komitəsinin sədri, dosent, müavin;
3) Qasımov Himalay Ənvər oğlu -“Azərbaycan və dünya ədəbiyyatı” kafedrasının müdiri, professor;
4) Abdullayeva Zemfira Kəlpəli qızı – “Musiqi alətləri fənlərinin tədrisi metodikası” kafedrasının professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru;
5) Niftiyev Namiq Nadir oğlu – “Ümumi fizika” kafedrasının dosenti;
6) Cavadov Təyyar Salam oğlu –“Azərbaycan və dünya ədəbiyyatı” kafedrasının professor;
7) Rəcəbova Münəvvər Qəzənfər qızı - Tədris prosesinin metodiki təminatı və akkreditasiya bölməsinin metodisti, katib.

**2.** “İmtahan qərargahı”na tapşırılsın ki,

- Qərargaha daxil olan hər bir şikayətin qısa müddətdə operativ şəkildə araşdırılmasını təmin etsin;
- İmtahanların təşkili və gedişində nöqsanlara, neqativ hallara yol vermiş şəxslər barədə rektorluğa məlumat verilsin.

**3.** Universitetin Ü.Hacıbəyli 68 ünvanındakı əsas binasının II mərtəbəsində 204 nömrəli otaq “İmtahan qərargahı” üçün ayrılsın və müvafiq şəraitin yaradılması inzibati təsərrüfat işləri üzrə prorektora (dos.S.Hüseynov) tapşırılsın.

**4**. **“**İmtahan qərargahı**”**nın əlaqə nömrəsinin (012) 498-17- 94 və ünvanının Universitetin internet informasiya ehtiyatında (saytında) yerləşdirilməsi, tələbələrə və ictimaiyyətə catırılması Tədrisin İdarə olunması və tədris texnologiyaları Mərkəzinin direktoru dos.S.Əliyevə, Magistatura və doktorantura şöbəsinin müdiri, prof.İ.Bayramova, fakultə dekanlarına və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri M.İbrahimliyə tapşırılsın.

**5**. İmtahan sessiyasının gedişi barədə kütləvi informasıya vasitələrinə məlumat verilməsi Tərbiyə işləri üzrə prorektora (prof.F.Rzayev) və İctimaiyyətlə əlaqələr şöbəsinin müdirinə (M.İbrahimli) tapşırılsın.

**6.** Magistratura və doktorantura şöbəsinin müdirinin, fakultə dekanlarının nəzərinə çatdırılsın ki, rəhbərlik etdikləri şöbədə və fakultədə baş verə biləcək hər bir neqativ hallara görə məsuliyyət daşıyırlar.

**7.** Magistratura və doktorantura şöbəsinin müdiri və fakültə dekanlarına tapşırılsın ki, imtahanlar başa catdıqdan sonra payız semestrinin imtahan sessiyasının təşkili, keçirilməsi və nəticələr ibarədə 5 gün müddətində rektorluğa ətraflı məlumat versinlər.

**8.** “İmtahan qərərgahının” rəhbəri, pedaqogika üzrə fəlsəfə doktoru, dos.Hüseynova Nailə Tofiq qızına tapşırılsın ki, payız semestrinin imtahan sessiyasının təşkili, kecirilməsi və nəticələri barədə sessiya bitdikdən sonra 5 gün müddətində rektorluğa və Təhsil Nazirliyinə yekun hesabat təqdim etsin.

**9.** Əmrin surətinin prorektorlara, Tədrisin İdarə olunması və tədris texnologiyaları Mərkəzinə, Magistatura və doktorantura şöbəsinə, fakültə dekanlıqlarına və digər aidiyyatı struktur bölmələrə çatdırılması Ümimi şöbənin müdiri X.Əliyevaya tapşırılsın.

**10.** Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

**Əsas:** Tədris işləri üzrə prorektor, prof.M.Cəbrayılovun təqdimatı

**Rektor** **prof.Cəfər Cəfərov**